XOCALI SOYQIRIMI - ƏSRİN FACİƏSİ

Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun fəaliyyətində başlıca yer tutur

Tarix boyu türklərə qarşı soyqırımı həyata keçirməkdən çəkinməyən ermənilər XX əsrin sonlarında bütün bəşəriyyətə və insanlığa ləkə olan növbəti cinayəti - Xocalı qətliamını həyata keçirdilər. 613 nəfər dinc sakinin qəddarcasına öldürülməsi, 1275 nəfərin girov götürülərək ən ağlasığmaz və təhqiramiz üsullarla işgəncələrə məruz qalması, 150 nəfərin itkin düşməsi ilə nəticələnən Xocalı faciəsi ermənilərin xəstə təfəkkürdən doğan niyyətlərinə çatmaq üçün Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifəsidir.

Xocalıda baş verənlər soyqırımı ilə əlaqədar beynəlxalq konvensiyaların müddəalarına cavab versə də, təəssüflər olsun ki, dünya ictimaiyyəti hələ də faciəyə siyasi qiymət verməyib. Ermənilərin törətdiyi müdhiş cinayətin xarakteri və miqyası BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada əksini tapmış müddəalara tam uyğundur. Qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayanların məhz azərbaycanlı olduqlarına görə həyata keçirilmişdir. Xocalı sakinlərinə qarşı soyqırımı cinayəti Dağlıq Qarabağın işğalı planı çərçivəsində Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasətinin növbəti mərhələsi idi. Məlum olduğu kimi, məhdud coğrafi zonada oxşar əməllərin törədilməsi keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalı tərəfindən soyqırımı aktı kimi tövsif edilmişdir.

Təəssüf ki, bir çox dövlətlərin ikili standartlardan çıxış etməsinin, bəzilərinin məsələyə ehtiyatla yanaşmasının nəticəsidir ki, dünya ictimaiyyəti Xocalıda baş verənlərin soyqırımı olduğunu dilinə gətirmək istəmir. Təsəvvür etmək çətindir ki, tarixdə analoqu olmayan belə qəddarlıq və vəhşilik XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermişdir. Təəssüf ki, dünya unudur ki, bu cinayət təkcə azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmişdir.

Azərbaycan dövləti Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi cinayətlərin, o cümlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl iş aparır. Məqsəd tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları beynəlxalq səviyyədə ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Bu gün hər bir azərbaycanlının, qanında, canında vətən sevgisi olan hər bir kəsin qarşısında duran ən əsas vəzifələrdən biri Azərbaycan dövlətinin bu istiqamətdə həyata keçirdiyi işlərə dəstək verərək Xocalı soyqırımı barədə əsl həqiqətləri dünyaya çatdırmaq, faciəyə beynəlxalq müstəvidə siyasi-hüquqi qiymətin verilməsinə nail olmaqdır. Azərbaycan Prezidenti İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyi barədə demişdir: **"Bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşlarımız, geniş ictimaiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidir. Bu istiqamətdə görülən işləri razılıqla qeyd etməklə yanaşı, onu da bildirmək istərdim ki, tədbirlər daha əhatəli, planlı şəkildə aparılmalı və əlaqələndirilməlidir".**

Xocalı faciəsinin ildönümü hər il ölkəmizlə yanaşı, onun hüdudlarından kənarda yaşayan soydaşlarımız tərəfindən də ürək ağrısı ilə qeyd olunur. Fevralın 26-da dünyanın bir çox ölkəsində Xocalı faciəsi qurbanlarının xatirəsi anılır, piketlər, mitinqlər keçirilir. Son bir neçə ildə isə müdhiş faciə və onun qurbanlarının anıldığı ölkələrin, şəhərlərin coğrafi dairəsi genişlənmişdir. Azərbaycan diasorunun bu məsələdə fəallaşması, həmçinin türk diaspor təşkilatlarının aktiv şəkildə təbliğat kampaniyasına qoşulması Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması üçün daha səmərəli tədbirlərin həyata keçirilməsinə təkan verib.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun öyrənilməsinə, təbliğinə, ideyalarının həyata keçirilməsinə dəstək verən, ulu öndərin zəngin irsindən bəhrələnərək ölkəmizin sosial-siyasi, iqtisadi, mədəni tərəqqisi, dünya birliyinə inteqrasiyası, vətəndaşların maddi rifahının yaxşılaşması üçün bu işə xidmət edən genişmiqyaslı proqram və layihələr həyata keçirən Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində də ardıcıl və məqsədyönlü fəaliyyət göstərir. Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva hələ 2006-cı il yanvarın 24-də "Qarabağ həqiqətləri" bukletlər toplusunun təqdimat mərasimində bu barədə demişdir: "Hər bir millətin qarşılaşa biləcəyi ən böyük haqsızlıq, ən böyük faciə təcavüz və torpağının işğalıdır. Azərbaycan xalqı artıq neçə illərdir ki, belə bir haqsızlıqla üzləşmişdir. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. 20 mindən artıq insan həlak olmuş, 50 mindən çox adam yaralanmış və əlil olmuşdur. 1 milyondan artıq insan 10 ildən çoxdur ki, öz doğma torpağından didərgin düşərək qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Azərbaycanlılar ermənilər tərəfindən soyqırımına və etnik təmizləmə siyasətinə məruz qalmışlar. Bir milyondan çox soydaşımızın insan hüquqları tapdanmışdır. Bütün bəşəriyyətə qarşı tarixi bir cinayət olan Xocalı soyqırımı Azərbaycanın XX əsr tarixinin ən ağır faciəsidir. Bütün bu reallıqlar, bütün bu həqiqətlər bizim ən ağır problemimizdir və biz artıq bu reallıqlarla, bu həqiqətlərlə XXI əsrə qədəm qoymuşuq. Bütün bu həqiqətləri, bütün bu hadisələri, faktları, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəb və nəticələrini beynəlxalq ictimaiyyətə çatdırmaq, informasiya blokadasını yarmaq, on illərdən bəri erməni diasporu tərəfindən yayılan yalan və uydurmaların qarşısını almaq Heydər Əliyev siyasətinin ayrılmaz bir hissəsi idi. Heydər Əliyev hər bir xarici səfərinə Azərbaycanın xəritəsini də aparır və orada keçirilən görüşlər zamanı rastlaşdığı insanlara bütün həqiqətləri, faktları çatdırırdı və bunu hər bir azərbaycanlıya tövsiyə edirdi. Bu gün də həmin siyasət davam etdirilir".

Qeyd edək ki, Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin yayılması istiqamətində fəaliyyəti 2005-ci ildə fond tərəfindən yaradılan **Azerbaijan.az** portalının internet şəbəkəsinə qoşulması ilə özünün əsas mərhələsinə qədəm qoyub. Bu internet saytında Ermənistanın Azərbaycana təcavüzü, yüz minlərlə azərbaycanlının didərgin, qaçqın, məcburi köçkün vəziyyətinə düşməsi, ermənilərin dinc azərbaycanlılara qarşı həyata keçirdikləri qətliamlara dair informasiyalar Azərbaycan, ingilis və rus dillərində yerləşdirilib.

Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, bunun üçün müxtəlif tədbirlərin keçirilməsi Heydər Əliyev Fondunun fəaliyyətində əsas yerlərdən birini tutan ümumi məqsəddir. Fond bir neçə ildir ki, bütün imkanlarından istifadə edərək Xocalı soyqırımının dünyada təbliği yönündə ardıcıl, məqsədyönlü və səmərəli tədbirlər həyata keçirməkdədir. Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə xarici ölkələrdə keçirilən tədbirlərə Heydər Əliyev Fondunun verdiyi dəstək, eləcə də fondun özünün təşəbbüsü ilə görülən işlər xüsusi əhəmiyyətə malikdir. Yeri gəlmişkən, Xocalı soyqırımı haqqında həqiqətlər "Qarabağ həqiqətləri" bukletlər toplusunda da yer alıb. Bu toplu "Qarabağın tarixi haqqında qısa məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" və "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri" bukletlərindən ibarətdir. Bukletlər toplusu Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə əzəli Azərbaycan torpağı olan Qarabağ haqqında həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq məqsədilə hazırlanmışdır. İngilis, fransız, rus, alman və macar dillərində çap olunaraq dünyanın bir çox dövlətlərində yayılan "Qarabağ həqiqətləri" bukletlər toplusu bu məqsədlə həyata keçirilmiş layihələr sırasında xüsusi əhəmiyyətə malikdir.

Xatırladaq ki, hələ 2007-ci ildə, Xocalı soyqırımının 15-ci ildönümündə dünya ictimaiyyətinin faciə ilə bağlı yaxından məlumatlandırılması məqsədilə Heydər Əliyev Fondu xüsusi layihə hazırlayaraq uğurla həyata keçirib. Fransa, Rusiya, Çin, Böyük Britaniya, Belçika, Avstriya, Almaniya, Küveyt, Rumıniya, Danimarka, Mərakeş, Çexiya, Macarıstan, Yeni Zelandiya, Hollandiya, İran, İsveç, İsveçrə, Ukrayna, Gürcüstan və digər ölkələrdə keçirilən anma mərasimlərində, konfranslarda, mitinq və piketlərdə Heydər Əliyev Fondunun göndərdiyi materiallardan geniş istifadə edilib. Layihə çərçivəsində müxtəlif ölkələrdə keçirilən mərasimlər zamanı Heydər Əliyev Fondunun ingilis, rus və türk dillərində hazırladığı "Xocalı soyqırımı" adlı sənədli film nümayiş etdirilib, həmçinin "Xocalı uşaqların gözü ilə", "Təcavüzün qurbanları" adlı foto və rəsm sərgiləri təşkil olunub. Tədbir iştirakçılarına fondun hazırladığı "Qarabağ həqiqətləri" bukletlər toplusu, nəşrlərin CD-DVD variantları da paylanılıb.

2008-ci ildə də Heydər Əliyev Fondu Xocalı faciəsinin dünyada tanıdılması işini layiqincə həyata keçirib, ölkə daxilində və xaricdə böyük işlər görüb. Qeyd edək ki, fondun ötən il gördüyü işlərin hazırlığına 2007-ci ilin dekabr ayında Mehriban xanım Əliyevanın tapşırığı ilə başlanmışdı. Faciənin ildönümü ərəfəsində dünyanın bir sıra ölkələrində Xocalı soyqırımına həsr edilmiş fotosərgilər keçirilib, müxtəlif nəşrlər nümayiş etdirilib. Təqdirəlayiq haldır ki, 2008-ci ildə sərgilərin keçirildiyi ölkələrin coğrafiyası bir qədər də genişlənib. Ötən il fevralın 27-də Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin təşəbbüsü ilə Moskvada "Xocalı. 16 il sonra" mövzusunda elmi-praktiki konfrans da keçirilib. Konfransdakı çıxışında Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva Xocalı faciəsinin öz miqyasına və qəddarlığına görə bəşəriyyət əleyhinə ən ağır cinayətlərlə bir sırada olduğunu, Xocalı yaralarının hər bir azərbaycanlının ürəyində əbədi qalacağını bildirib. Fondun Rusiyadakı nümayəndəliyinin Moskvada Rusiya və Azərbaycan gənclərini, Rusiyanın aparıcı ali məktəblərinin tələbələrini cəlb etməklə xalqımızın tarixində faciəli səhifə olan Xocalı soyqırımının 16-cı ildönümünə həsr edilmiş belə bir kütləvi tədbir keçirməsi çox vacib və əhəmiyyətli idi.

Heydər Əliyev Fondu Xocalıda baş vermiş hadisələrin yeni nəslin yaddaşında qalması üçün nə mümkündürsə etməyi özünün mənəvi borcu hesab edir. Bunun üçün 2007-ci ildə də "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsinin keçirilməsini davam etdirib. Fondun Bakıda və bəzi başqa dövlətlərdə uşaq evlərində və internat-məktəblərdə təربiyə alan uşaqlar arasında keçirdiyi müsabiqənin qaliblərinin əl işləri ötən il Moskvada keçirilən tədbirdə nümayş etdirilib.

Bu il də Heydər Əliyev Fondunun xətti ilə xarici ölkələrdə Xocalı soyqırımının qurbanları anılır. Bütün tədbirlərdə isə Heydər Əliyev Fondunun hazırladığı materiallar yayılır.

Xocalı həqiqətlərinin dünyaya yayılması ilə bağlı həyata keçirdiyi tədbirlər göstərir ki, Heydər Əliyev Fondu effektiv nəticənin hasil olması üçün bu sahədəki fəaliyyətini keyfiyyətli qurub. Məhz bu cür ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, dünya ictimaiyyəti getdikcə Xocalı soyqırımı haqqında daha çox məlumatlar toplayır, əsl həqiqətlərin nədən ibarət olduğunu daha dərindən anlayır.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Dövlət Miqrasiya Xidmətində Xocalı soyqırımı qurbanlarının anım mərasimi keçirilib

Dövlət Miqrasiya Xidmətində Xocalı soyqırımının 17-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir. Mərasim iştirakçıları əvvəlcə Xocalı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişdilər.

Dövlət Miqrasiya Xidmətinin rəisi Arzu Rəhimov tədbirdə çıxış edərək bildirmişdir ki, Xocalı soyqırımı bəşər tarixinə XX əsrin ən dəhşətli qətliamı kimi daxil olmuşdur. Azərbaycan xalqı 200 il ərzində davamlı olaraq erməni millətçi-şovinistlərinin etnik təmizləmə siyasətinə məruz qalmış, nəticədə soydaşlarımız tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən soyqırımı, kütləvi qırğınlar ilə müşayiət olunmuşdur.

Xocalı soyqırımının cinayətkar erməni siyasətinin nəticəsi olduğunu vurğulayan A.Rəhimov qeyd etmişdir ki, Xocalı bu müharibədə hədəf seçilmiş, 4 ay mühasirədə qalmış, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 366-cı motoatıcı alayın zirehli texnikası ilə yerlə-yeksan edilmişdir. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi Xocalı soyqırımı nəticəsində 613 nəfərin, o cümlədən 106 qadın, 63 uşaq və 70 qocanın həyatına son qoyulmuş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 155 nəfər itkin düşmüşdür. 8 ailə bütünlüklə məhv edilmişdir. Əsir götürülənlərə amansız işgəncələr verilmişdir. A.Rəhimov Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması, eləcə də erməni faşizminin ifşası ilə bağlı ilk təşəbbüsün ulu öndər Heydər Əliyevə məxsus olduğunu xatırlatmışdır.

Tədbirdə Xocalı faciəsinə dair fotoəkillərdən, kitablardan ibarət sərgi təşkil olunmuş, soyqırımından bəhs edən sənədli film nümayiş etdirilmişdir.

"Azərbaycan"

Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim yaşayış məskənidir. Azərbaycan xalqı zəngin və özünəməxsus mədəniyyət, o cümlədən dövlətçilik ənənələri yaratmışdır. Yerli və xarici alimlər, etnoqraflar tədqiqatlarında bildirmişlər ki, Azərbaycan tarixinin öyrənilməsində Xocalı mədəniyyətinin tədqiqi mühüm əhəmiyyətə malikdir. Xocalı başdan-başa tarixi-memarlıq abidələri diyarıdır. Buna misal olaraq miladdan əvvəl XIII-VII əsrlərə aid Xocalı-Gədəbəy mədəniyyət abidələrini, son Tunc və ilk Dəmir dövrlərinə aid Nekropolu, Kurqan çölünü, eramızın IV-VII əsrlərinə aid kilsələri, XIV əsrə aid Xocalıda Hacı Əli günbəzini, 1356-cı ildə inşa olunmuş dairəvi türbəni, XVIII əsrdə tikilmiş Əsgəran qalasını və onlarca başqalarını göstərmək olar.

Xocalının qədim tarixi

Azərbaycanda Kiçik Qafqaz dağ və dağətəyi rayonlarında, Kür-Araz çayları arasında son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji mədəniyyət Xocalı-Gədəbəy mədəniyyəti abidələri adlandırılır. Xocalı-Gədəbəy mədəniyyət abidələri emalatxanalar, qəbirlər və ibadətgahlardan ibarətdir. Mədəniyyətin yayıldığı ərazidə misəritmə kürələri, mis və tunc məmulatları hazırlayan əmalatxanaların qalıqları, çaxmaq daşından alət və silahların istehsal tullantıları aşkar edilmişdir. Buradan Neolit dövründə yaşayan insanlara aid əmək alətləri də tapılmışdır. Torpaq, daş qutu qəbirlər və kurqanlarda ölülər büküllü, uzadılmış, oturdulmuş vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərin keramikası demək olar ki, eynidir. Qəbirlərdən tunc, qılınc, təbərzin, toppuz, ox, yaba, xəncər, nizə ucluğu, bardak, qazan, cilov, bilərzik, üzük, sümükdən hazırlanmış bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif məmulatlar aşkar edilmişdir.

Xocalı günbəzi, XIV əsr

Bu faktlar sübut edir ki, Xocalı Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Keçmiş SSRİ-nin tanınmış etnoqraf alimləri və yerli etnoqraflar qədim dövrə aid abidələri daha çox Xocalı və Xankəndi yaxınlığında apardıqları tədqiqatlar zamanı tapmışlar. Onlar arxeoloji qazıntılar zamanı kurqanlara, qəbir daşlarına və müxtəlif yaşayış məskənlərinə rast gəliblər. Qədim Xocalı qəbiristanlığındakı 11 saylı kurqandan tapılan muncuqlar, üzərində eramızdan əvvəl 1307-1275-ci illərdə Assuriya çarı Adadnirariyə aid mixi yazılar, eləcə də müxtəlif çeşidli bəzək əşyaları, saxsı qablar, şüşə muncuqlar yerli sakinlərin Şərq ölkələri ilə geniş iqtisadi-mədəni əlaqələrindən xəbər verir. Azərbaycanın Kiçik Qafqaz dağ və dağətəyi ərazilərində eramızdan əvvəl XIII-VII əsrlərdə yayılmış arxeoloji mədəniyyət ilk dəfə Xocalı yaşayış məskənində və Gədəbəy rayonunda tətbiq olunduğundan bu abidələr Xocalı-Gədəbəy mədəniyyəti nümunələri adlandırılır. Alimlər sübut ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti son Tunc və erkən Dəmir dövrlərinin xarakterik xüsusiyyətlərini özündə cəmləşdirir. Qəbirlərdən tunc, qılınc, nizə ucluğu, silahlar, ox, yaba, təbərzin, toppuz, bilərzik, sümükdən hazırlanmış bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif əşyalar aşkar edilmişdir. Aparılan toponomik araşdırmalar göstərir ki, xalqımızın uzaq keçmişindən tutmuş bu gününədək olan məşğuliyyəti Xocalı toponomiyasında da öz əksini tapmışdır.

İ.M.Dyakonov, M.Kalankatlı və M.Xorenli öz əsərlərində Qafqaz Albaniyasının Xocalı rayonu ərazisinə aid Qarqar düzünü Qafqaz tayfalarından olan Qarqarların adı ilə bağlayırlar. Onlar alban əlifbasının qarqarların dili əsasında tərtib olunduğu ehtimalını da irəli sürüblər. Hazırda Qarqar Xocalıda yerləşən dağ silsiləsidir. Qafqaz Albaniyası dövrünü tədqiq edən alimlərdən K.V.Trever III əsrdə Albaniyada Qarqar düzü adlı yerin olduğunu söyləyib. Adı Qafqaz Albaniyasının Qarqar tayfasından götürülmüş Qarqar çayı Şuşa, Xocalı, Ağdam, Ağcabədi rayonları ərazisində, Kür çayının hövzəsindədir. Ətraf rayonlar bu çaydan suvarmada geniş istifadə edirdi. Qarqar düzü və Qarqar dağ silsiləsi adlanan ərazi də Xocalı rayonunun ərazisində yerləşən dağ silsiləsidir və Qafqaz tayfalarından olan qarqarların adı ilə bağlıdır. Qarqarlar, utilər, albanlar və digər türkdilli xalqlarla birgə Qarabağın qədim sakinləri hesab olunurlar. Yunan coğrafiyaşünas alimi Strabon qarqarların Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. Heç bir alim və tədqiqatçı, hətta tarixin atası hesab olunan Heredot, coğrafiyaşünas Strabon, M.Kalankatlı belə Qarabağ ərazisində erməni toponimini, mədəniyyətini, yaşayış tərzini xatırladan mənbə göstərməyiblər. M.Xorenli və M.Kalankatlı alban əlifbasının qarqarların dili əsasında tərtib olunduğunu etiraf etmişlər. Hətta şərqşünas V.V.Bartold XVIII-XIX əsrə aid mənbələrdə Orta Qazaxıstanda və Tyan-Şanda Qarqar adlı toponimlərin olduğunu deyib. Tarix boyu Azərbaycan xalqının yaratdığı Manna, Midiya, Albaniya və Atropatena dövlətlərinin formalaşmasında və inkişafında Qarqar boylarının böyük rolu olmuşdur.

Xocalı rayonu ərazisindəki Əsgəran qalası XVIII əsrdə Qarqar çayının sağ və sol sahillərində Qarabağ xanı Pənahəli xan tərəfindən tikilib. İki istehkamdan ibarət qala çay daşından inşa olunmuşdur. Yeri gəlmişkən, 1810-cu ildə Rusiya ilə İran arasında sülh danışıqları Əsgəran qalasında aparılmışdır. Əsgəran sözünün mənası "Qədim Aran" deməkdir. Tarixi faktlar sübut edir ki, Xocalı rayonu ərazisi Azərbaycanın ən qədim, qocaman diyarlarından biridir. Aparılan araşdırmalar göstərir ki, xalqımızın uzaq keçmişindən tutmuş bu gününədək olan məşğuliyyəti, sənətkarlığı, dini baxışları, mədəniyyəti Xocalı toponomiyasında öz əksini tapmışdır.

Çox təəssüf ki, Xocalı-Gədəbəy mədəniyyət abidələrinin əksəriyyəti Sankt-Peterburq Antropologiya və Etnoqrafiya Muzeyinə, Moskvanın Tarix Muzeyinə və başqa muzeylərə daşınıb aparılmışdır.

Xocalı rayonu şimaldan və şimal-şərqdən Kəlbəcər və Ağdam rayonları, cənubdan və cənub-şərqdən Şuşa və Xocavənd, qərbdən isə Laçın rayonu ilə həmsərhəddir. Səthi əsasən dağlıq zonadan ibarət, ərazisi 926 kvadrat kilometrdir. Əvvəlki adı Xocalı olmuş, 1930-1978-ci illərdə Stepanakert (Xankəndi), 1978-1991-ci illərdə Əsgəran inzibati ərazisinə aid edilmiş, 1991-ci ildən isə yenidən Xocalı adlandırılmışdır. Rayonun qərb sərhədi boyunca Qarabağ silsiləsi uzanır. Silsilənin şərq yamacları Xocalı ərazisindən Qarabağ və Mil düzlərinə tərəf çay dərələri boyunca uzanır. Bu qədim yaşayış məskəninin ən yüksək zirvəsi 2843 metr hündürlükdə olan Qızqala və 2827 metr hündürlükdə olan Qırxqız dağlarıdır. Ərazidə yura, tabaşir və antropogen çöküntüləri geniş yayılmış, gil, qum, çaqıl və gillicə kimi faydalı qazıntılarla zəngindir. İqlimi əsasən mülayimdir. Əsas su ehtiyatı Qarqarçay olan Xocalının 40 faizi palıd, fısdıq və tut ağaclarından ibarət meşələrdir. Etnoqraf alimlər söyləyirlər ki, Xocalı meşələrində əsasən dağ keçisinə, cüyürə, vaşaqa, meşə pişiyinə, süleysinə, tülküyə, canavara, hərdən ayıya, quşlardan isə kəkliyə, sığırçına, turaca, qırqovula rast gəlmək olurdu. Dağlıq sahələri alp və subalp çəmənləri ilə örtülmüşdür. Alçaq dağətəyi sahələrdə kserofit kolluqlar və çəmənlər vardır. Rayonun kənd təssərrüfatında heyvandarlıq, taxılçılıq və üzümçülük əsas yer tuturdu. Xocalıda birbirindən gözəl şəffaf sulu soyuq Qarağac bulağı, Ataş bulağı, Əhməd bulağı, Rəhim bulağı, Museyib bulağı, Nəriman bulağı, Üçbulaq və başqa bulaqlar var. Xocalının ərazisində 86 kənd yerləşirdi. Məşhur Ağa körpüsü Xocalıda, Xankəndi şəhərindən 1 km cənubda Qarqar çayı üzərində tikilmişdi. Vaxtilə Qarabağın varlı adamlarından olmuş Məhəmməd ağanın adını daşıyan və Şuşa ilə əlaqə yaradan Ağa körpüsü 1988-1990-cı illərdə dəfələrlə azğınlaşmış erməni quldurlarının təcavüzünə məruz qalmış, sonda tamamilə dağıdılmışdır.

Xocalı şəhəri Qarabağ silsiləsinin ətəyində Qarqar, İlis və Xocalı çaylarının qovuşduğu ərazidə, Ağbulaq, Haraguh, Badara, Daşbulaq, Ballıca, Mehdikənd, Naxçıvanik kəndləri əhatəsində, Dağlıq Qarabağın mərkəzi Xankəndi şəhərindən 11 km şimal-şərqdə yerləşir. 1930-cu ildə rayon statusu almışdır. Sonralar Daşbulaq, Meşəli, Yaloba, Cəmilli, Kosalar, Kərkicahan, Başkənd, Piréməki, Həsənabad, Cavadlar, Qaragav və Canhəsən kimi iri kəndlər də Xocalı rayonunun tərkibinə verilmişdir. Xocalı qəsəbəsi üç hissəyə bölünürdü. Birinci Xocalı çayının sol sahilində, İlis çayının Xocalı çayına qovuşduğu sahənin əmələ gətirdiyi üçbucaqda yerləşən köhnə Xocalı, ikinci Xocalı çayının sağ sahilində köhnə Xocalıdan cənubda XX əsrin əvvəllərində müxtəlif ərazilərdən gələnlər tərəfindən salınmış Qaladərəsi Xocalısı, üçüncüsü Xocalı və Qarqar çayları arasındaki köhnə poçt stansiyası ərazisində 1918-1920-ci illərdə Ermənistandan qovulmuş qaçqınlar tərəfindən salınmış Xocalıdır. Bu şəhər 1905-1906-cı illərdə, 1917-1918-ci illərdə dəfələrlə xəyanətkar ermənilər tərəfindən yandırılıb dağıdılmışdı. 1992-ci ildə işğaldan əvvəl Ermənistandan, Xankəndidən didərgin salınmış soydaşlarımız, Özbəkistanın Fərqanə vilayətindən qaçqın düşən Ahıska türkləri və yüzlərlə məhsəti türkü də Xocalıda məskunlaşmışdı.

1991-ci ildə rayonun əhalisi 7000 nəfərə yaxın idi. İşğaldan bir az öncə şəhər statusu almış Xocalının yeni tikilmiş geniş yaşayış massivləri, şərab və pivə zavodları, məişət xidməti kombinatı, tikinti müəssisəsi, 100 çarpayılıq xəstəxana, 30 məktəb, 36 kitabxana, 13 mədəniyyət evi, 31 klub və başqa məişət obyektləri var idi. Şəhər statusu alandan sonra Xocalı xeyli böyümüş, orada iri yaşayış massivləri tikilmişdi.

1991-ci ilin oktyabrında Xocalı ilə avtomobil əlaqəsi demək olar ki, kəsilmişdi. Həmin vaxtdan etibarən şəhərlə əlaqə ancaq vertolyotların köməyi ilə saxlanılırdı. 1992-ci il yanvarın 2-də elektrik xətti də kəsildi. Xocalıya sonuncu dəfə ərzaq yardımı hərbi vertolyotla fevralın 13-də aparılmışdı. Bununla da Xocalı ilə bütün əlaqələr kəsildi. Gözlənilən təhlükəni xocalılılar hiss edirdilər. Fevralın 24-də əsir götürülən erməni də yaxın günlərdə Xocalıya hücum planının hazırlandığını deyib. Kömək üçün edilən bütün müraciətlər cavabsız qalıb. Fevralın 25-də axşamüstü Xocalıya gəlib-gedən bütün yollar erməni vəhşiləri tərəfindən nəzarətə götürülüb. Axşam saat 21.00-dan şəhər aramsız artilleriya atəşinə tutulub. Gecə saat 23.00-dan başlayaraq 366-cı motoatıcı alayın zirehli texnikaları, onların arxasınca da erməni piyadaları üç tərəfdən böyük qüvvə ilə Xocalıya hücum ediblər. Həmin gecə - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə XX əsrin ən böyük faciəsi - Xocalı soyqırımı baş verdi.

R.RZALI,
"Azərbaycan"

Yeni nəşrlər

Dərdin rəngi çilənmiş misralar



Bədii və ədəbi yazılara səhifələrində geniş yer verən "525-ci qəzet"in dəstəyi ilə Mütərcim nəşriyyatında şair-publisist Ədalət Əsgərəoğlunun **"Dərdimizin qan rəngi"** poeması Azərbaycan, türk, rus və ingilis dillərində oxuculara çatdırılıb. Əsərdə ötən əsrin faciəsi - Xocalı soyqırımı kövrək, ağrılı-acılı həm də düşmənlərə qarşı dərin nifrətlə əks olunub. Qanlı-qadalı müsibəti sözlə, bədii fikirlə canlandıran şairin ürəyindən keçənlər sanki kino kadrları kimi göz önündən ötüb keçir.

Poemanın "Dərdimizin qan rəngi" adlanması da təsadüfi deyil. Günahsız tökülən qanlar millətimizi daha ayıq-sayıq olmağa səsləyir. Yaddaşlarda oyadır ki, nahaq qan yerdə qalmaz, qalmamalıdır da. Ədalət Əsgərəoğlu, tənqidçi Vaqif Yusiflinin təbirincə desək, dərdimizin qan rəngini poeziyamızın rənginə çevirə bilib.

"Azərbaycan"